# Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri Ahmet Erentokun ÇIXIŞI

Hörmətli cənab nazirlər,
Hörmətli millət vəkilləri,
Hörmətli səfirlər və iş adamları,
Hörmətli xanımlar və cənablar!

Dəvətimizi qəbul edib bizi şərfələndirdiyiniz üçün hər birinizə təşəkkürümü bildirirəm.

Bildiyiniz kimi, Türkiyə Cumhuriyyətinin sənaye və ticarət naziri cənab Ali Coşkun dünəndən ölkəmizdə səfərdədir. Cənab nazir də bu gün burada tədbirimizdə iştirak edir, cənab nazir xoş gəlmisiziniz!

Cənab nazirlə bərabər Azərbaycana Türkiyədən iş adamları təşrif buyurmuşlar, onlara da xoş gəldiniz deyirəm.

Mən eyni zamanda, Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri cənab Heydər Babayevi, sənaye və energetika naziri cənab Natiq Əliyevi, parlamnet üzvlərini, diplomatik korpusun nümayəndələrini, Azərbaycanda fəaliyyət göstərən iş adamlarını salamlamaqdan məmnunluq duyduğumu bildirirəm.

İcazənizlə sizə Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ən mühüm layihələrindən biri olan Qara Dəniz və Xəzərə Dənizi Sahibkarlar Konfederasiyası (UBCCE) barədə qısa bir prezentasiya təqdim etmək istərdim.

İlk öncə bildirim ki, ATIB Avrasiya regionunda iş adamlarını birləşdirəcək təşkilatın yaradılması təşəbbüsünü 2 il əvvəl irəli sürmüş və bu istiqamətdə aktiv fəaliyyət göstərmişdir. Belə ki, **30 sentyabr – 1 oktyabr 2004 tarixlərində keçirilən 5-ci Dünya Türk İş Adamları Qurultayında tərəfimizdən Avrasiya İqtisadi Əməkdaşlıq Layihəsinin** həyata keçirilməsi ilə bağlı təklif irəli sürüldü və bununla da, gələcəkdə regionda İş Adamları Birliyinin qurulması istiqamətində ilk addım atılmış oldu.

Daha sonra DEİK-lə birgə həyata keçirilən əməkdaşlıq nəticəsində **6-7 oktyabr 2005-ci "Avrasiya İş Adamları Konfederasiyası yolunda 1-ci Bakı Toplantısı"** keçirildi. İclas sonunda Bakı Bəyannaməsi imzalandı və yayımlandı. Bu işdə bizlə birlikdə çalışan və bizə dəstəyini əsirgəməyən Türkiyə Avrasiya İş Şurasının sədri cənab Tuğrul Erkin, Türkiyə Azərbaycan İş Şurasının sədri Cengiz Gül başda olmaqla bu işdə əməyi olan hər bir DEİK əməkdaşına təşəkkürümü bildirirəm.

Bakı Bəyannaməsi barədə məlumat vermək üçün ATİB nümayəndə heyətinin **10 noyabr 2006-cı ildə** TÜSİAD İdarə Heyətinin sədri və Türkiyənin aparıcı iş adamlarından biri olan Ömər Sabancı ilə keçirilən görüşündə birliyin əhatə edəcəyi regionu daha da genişləndirmək və Qara dəniz regionu ölkələrinin iş adamlarının qeyri-hökumət təşkilatlarını bu təşkilatda iştirak etməyə dəvət etmək qərara alındı.

**25 – 26 iyun 2006-cı ildə** UBCCE-nin təsisində iştirak edəcək təşkilatların baş katiblərinin iclası keçirilmiş və qərara alınmışdır:

1) UBCCE-nin daimi katibliyi İstanbulda yerləşsin
2) 26 - 27 Noyabr 2006-cı il tarixlərində UBCCE-nin təsisçiliyində iştirak edəcək təşkilatlarin Sədrlərinin iştirakı ilə Təsis Yığıncağı keçirilsin
3) 1 Yanvar 2007-ci ildən Katiblik fəaliyyətə başlasın
**4)** İranı təmsil edən təşkilatın təsisçilər arasında olmasını təmin etmək üçün ATİB-dən dəstək istənilsin

**30 sentyabr – 3 oktyabr 2006-cı il** tarixlərində İranın UBCCE-nin təsisçi ölkələri sırasına daxil edilməsi üçün ATİB nümayəndə heyəti bu ölkəyə səfər etmiş və iş adamları və rəsmi şəxslərlə çoxsaylı görüşlər keçirmişdir.

**27 NOYABR 2006-cı ildə 12 ölkənin 16 təşkilatının iştirak etdiyi UBCCE-nin Təsis Yığıncağı keçirildi və qərara alındı:**

1) UBCCE-nin rəsmən qurulması barədə prinsipial razılıq əldə edildi və təşkilatın qurulmasına rəsmən hüquqi start verildi
2) Təşkilatın Prezidentləri və Vitse-Prezidentləri seçildi. ATİB-in təmsil etdiyi Azərbaycan təşkilatın sahibkarlarla əlaqələr və innovasiya məsələləri üzrə vitse-prezidenti seçildi
3) Birliyin nizamnaməsi, 2007-ci il üçün büdcəsi və fəaliyyət istiqamətləri təsdiqləndi

Gələcəkdə özündə 20-dən artıq ölkəni birləşdirəcəyi gözlənilən **UBCCE iqtisadi məkanı** özündə

- 470 milyon nəfər əhalini, yəni **dünya əhalisinin 7.1%-i**
- 2.2 trilyon USD Ümumi Daxili Məhsulu, yəni **dünya üzrə ÜDM-nin 4.4%-i**
- 1 trilyon USD illik ticarət dövriyyəsini, yəni **dünya üzrə ticarətin 9.9%-i**
- 2005-ci ildə 50 milyard birbaşa xarici investisiyanı, yəni **dünya üzrə BXİ-nin 5.4%-i**

**əks etdirir** və dünyanın **ən vacib enerji mərkəzlərindən** və **transkontinental nəqliyyat dəhlizlərindən** biri kimi çıxış edir.

Bu ölkələrdəki özəl sektor təşkilatları bu potensialı hərəkətə gətirmək üçün aşağıdakı **strateji baxış** çərçivəsində əməkdaşlıq edə bilərlər:

QARA DƏNIZ VƏ XƏZƏR DƏNİZİ SAHİBKARLAR KONFEDERASIYALARI BİRLİYİ (UBCCE) regionun iqtisadi və sosial inkişafına yardım etmək məqsədini güdən dialoq və əməkdaşlıq üçün platforma olacaqdır.

**UNİCE, UMCE və UBCCE xəritəsi**

**UBCCE-nin əsas məqsədləri aşağıdakılardır:**

- *Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) və Qara Dəniz Ticarət və İnkişaf Bankı (QDTİB) ilə əməkdaşlıq etmək*
- *Üzv ölkələrin biznes təşkilatları arasında institutlanmış əməkdaşlığı qurmaq və əlaqələri təkmilləşdirmək*
- *Ticarət və investisiya fəaliyyətlərini və sahibkarlıq ruhunu gücləndirməklə regionun iqtisadi və sosial inkişafına yardım etmək*
- *Üzv təşkilatların təmsil etdikləri şirkətlərin sosial və iqtisadi maraqlarını dəstəkləmək*
- *Üzv ölkələrdə azad bazar iqtisadiyyatının funksiya göstərməsinə yardım etmək*

***Və bununla da, "Qara Dəniz və Xəzər Dənizi Regionunda Biznesin Səsi" funksiyasını yerinə yetirmək.***

UBCCE-nin əsas fəaliyyət sahələrinin aşağıdakılar olması gözlənilir:

- UBCCE QDİƏT-lə əməkdaşlıq çərçivəsində bu təşkilatın fəaliyyət sferası üzrə özəl sektorun mövqeyi barədə onu məlumatlandıracaq
- UBCCE regionda əlverişli biznes mühitinin yaradılması üçün çalışacaq və bunun üçün özəl sektoruna inkişafına əngəl yaradan maneələrin müəyyən edilməsi və onlar barədə hökumətlərin və nüfuzlu hökumətlərarası orqanların məlumatlandırılmasını həyata keçirəcək
- UBCCE üzvlər arasında regionda mövcud olan ticarət və investisiya potensialı barədə məlumatlılığın artırılması üçün çalışacaq
- UBCCE regionda birgə investisiya və ticarət fəaliyyətlərini dəstəkləyəcək
- UBCCE üzvlərinə informasiya xidmətləri göstərəcək, onlar üçün tədqiqatlar həyata keçirəcək və onların dəstəklənməsi məqsədilə fəaliyyətlər həyata keçirəcək
- UBCCE üzv təşkilatlara texniki yardım göstərəcək və onların üçün treyninqlər təşkil edəcək

Avrasiya məkanının mərkəzində yerləşən Azərbaycan üçün özünəxas xüsusiyyətləri və tarixən mövcud olan rolundan çıxış etməklə bu məkanı öz ətrafında cəmləşdirmək bir strateji vəzifə olmalıdır. Bununla Azərbaycan iki sivilizasiya (Şərq və Qərb) arasında qurulmuş körpu rolunu oynayacaq, Avrasiya məkanının Şərqi və Qərbi arasında geniş transkontinental kooperasiyanın nüvəsi olacaqdır.

UBCCE-nin Azərbaycan üçün əhəmiyyətindən danışarkən aşağıdakıları qeyd etməliyik:

- Azərbaycan biznesinin dünya iqtisadiyyatına inteqrasiyası
- Bütün inkişaf etmiş ölkələrdə milli iqtisadi maraqların reallaşdırılmasının əsas mexanizmi olan biznes assosiasiyaları səviyyəsində beynəlxalq əməkdaşlıq mexanizmlərinin işlənməsi
- Azərbaycanın regionun üç əsas aparıcı ölkəsi – Türkiyə, Rusiya və İran arasında siyasi, iqtisadi və mədəni baxımdan birləşdirici və əlaqələndirici ölkə rolunu oynamasının gücləndirilməsi
- Azərbaycanin UBCCE-də təşəbbüsçü kimi çıxış etməsi və iştirakı ilə Azərbaycanın strateji maraqlarının qorunması təmin ediləcək, Azərbaycanın Avrasiya regionunda geniş transkontinental əməkdaşlığın əsas həlqəsinə çevrilməsi istiqamətində daha bir addım atılacaqdır.

Azərbaycanın UBCCE üçün əhəmiyyətini isə aşağıdakı kimi sadalaya bilərik:

- Azərbaycanın unikal geosiyasi və geocoğrafi mövqeyi

- Azərbaycanın UBCCE-nin və Avrasiya regionunun 3 aparıcı ölkəsi (Türkiyə, Rusiya və İran) arasında tarixən formalaşmış əlaqələndirici rolu

**(Xəritə)**

- Azərbaycanın UBCCE-yə daxil olan ölkələrin mütləq əksəriyyəti ilə, o cümlədən aparıcı ölkələri ilə yüksək səviyyəli siyasi münasibətlərə malik olması

- Azərbaycanın regiondakı əsas enerji layihələrinin (Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzurum) aparıcı iştirakçısı olması

- Azərbaycanın regional layihələrdə "açar ölkə" rolunu oynaması

- Azərbaycanlı iş adamlarının UBCCE-nin əsas üzv ölkələrində əhəmiyyətli biznes mövqelərinə sahib olmaları

- Azərbaycanın ildən ilə artan iqtisadi gücü və nümayiş etdirdiyi sürətli iqtisadi inkişaf dinamikası:

- **Azərbaycan** UBCCE ölkələri arasında **ÜDM-nin artım tempinə görə lider ölkədir**: **2005-ci ildə - 26.2%**. **UBCCE** üzrə orta göstərici **7%**.
- 1995-2005-ci illərdə **Azərbaycanda ÜDM-nin orta illik artım tempi 10%** olub ki, bu da UBCCE üzrə ikinci göstəricidir. **UBCCE** üzrə ümumi göstərici **5%** təşkil edir.

- 2005-ci ildə **birbaşa xarici investisiyaların ÜDM-yə nisbəti**nə görə **Azərbaycan 13.4%**-lə UBCCE ölkələri arasında lider ölkə olub. **UBCCE** üzrə bu göstərici **2.6%** olub.
- 2005-ci ildə **Azərbaycan adambaşına düşən birbaşa xarici investisiyanın həcminə** görə, **200 USD** ilə UBCCE ölkələri arasında dördüncü olub. 2004-cü ildə isə **571 USD** ilə birinci olmuşdur.
- **Azərbaycan** 1995-2005-ci illərdə **əmtəə ixracının artəm tempinə görə 21%**-lə UBCCE ölkələri arasında ikinci olub. **UBCCE** üzrə ümumi göstərici **11%**-dir.

Azərbaycan bütün əsas iqtisadi göstəricilər üzrə yüksək inkişaf dinamikası nümayiş etdirir və onun iqtisadi göstəriciləri UBCCE üzrə orta göstəricini dəfələrlə üstələyir.

Ümumilli liderimiz Heydər Əliyev tərəfindən fundamenti qoyulmuş Azərbaycanın xarici və regional siyasəti nəticəsində ölkəmiz yaxın qonşuları, həmçinin digər xarici ölkələrlə yüksək səviyyəli pozitiv ikitərəfli əlaqələr qurmağa, regionda yerinin möhkəmlənməsinə nail olmuşdur.

Prezidentimiz cənab İlham Əliyevin bu siyasəti davam etdirməklə region və dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli əlaqələri daha da gücləndirməsi nəticəsində **Azərbaycan regionun parlayan ulduzuna çevrilmişdir**.

Bölgə ölkələri ilə geniş siyasi, iqtisadi və mədəni əlaqələrin mövcudluğu ölkənin bu regionda gedən inteqrasiya proseslərinə səmərəli şəkildə qoşulmasına imkan verir. Fikrimizcə, UBCCE çərçivəsində baş verəcək iqtisadi inteqrasiya prosesləri Avrasiya məkanında inteqrasiyanın üzvü elementinə çevrilməklə vahid iqtisadi məkanın formalaşması amili kimi çıxış edəcəkdir. Məhz ümumilikdə UBCCE, xüsusilikdə isə Azərbaycan vasitəsilə Avrasiya məkanı Ümumavropa məkanı ilə qovuşacaqdır. Belə ki, Azərbaycanın Avropa Birliyi ilə birgə iri transkontinental layihələrin həyata keçirilməsində aparıcı ölkə rolunu oynaması bunu şərtləndirir. Cənab Prezidentimizin dediyi kimi, hazırda Azərbaycan iştirak etmədən regionda heç bir qlobal layihə həyata keçirilməsi mümkün deyildir.

Azərbaycanin UBCCE kimi layihələrdə təşəbbüsçü kimi çıxış etməsi və iştirakı həddən artıq əhəmiyyətlidir. Çünki, bu təşəbbüsün (konkret halda UBCCE-nin) reallaşması halında Azərbaycanın strateji maraqlarının qorunması təmin ediləcəkdir. Avrasiya məkanında özünün coğrafi yerinə, regional kommunikasiya xətlərində iştirak səviyyəsinə, malik olduğu unikal resurslara görə, Azərbaycan geniş transkontinental əməkdaşlığın əsas həlqəsinə çevrilə bilər. Nəticədə Azərbaycan Avrasiyada və ümumilikdə qloballaşan dünyada layiqli yer tutan, həm Şərqdə, həm də Qərbdə istənilən maraqlı birliklərlə bərabərhüquqlu əlaqələrin inkişaf etdirilməsinə imkan verən inteqrasiya qruplaşmasının yaradılmasında aparıcı rol oynayacaqdır.

"Harvard Business School"un Strategiya və Rəqabət Tədqiqatlar İnstitutunun ekspertlərinin fikrincə, **ölkələrin və regionların iqtisadi inkişaf modeli** hökumət qurumları, QHT-lər, biznes aləmi, elm, texnologiya və təhsil institutlarının sinerji yaradan qarşılıqlı faydalı əməkdaşlığına əsaslanmalıdır.

Göründüyü kimi, bu məsələdə ATİB-in təmsil etdiyi QHT sektoru və biznes aləminin üzərinə önəmli vəzifələr və məsuliyyətlər düşməkdədir. Bu vəzifələrin və məsuliyyətlərin Azərbaycana layiq şəkildə yerinə yetirməmiz üçün **sizin hər birinizlə əməkdaşlığa və hər birinizin dəstəyinə böyük ehtiyacımız vardır.**

Sonda mən UBCCE-nin qurulmasında bizə dəstəyini əsirgəməmiş, layihə barədə məlumat verdiyimiz gündən bizi bu işin həyata keçirilməsinə həvəsləndirmiş Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Babayevi təşəkkür plaketinin təqdim edilməsi üçün buraya dəvət etmək istərdim.